**Dövlət Statistika Komitəsinin nümayəndəsi Naxçıvan şəhərində keçirilmiş regional seminarda iştirak etmişdir.**



Dövlət Statistika Komitəsinin Xidmət statistikası şöbəsinin sektor müdiri Anar Orucov cari ilin aprel ayının 24-26-da "Elektrikrabitə/ İnformasiya və kommunikasiya texnologiyalarının göstəricilərinin beynəlxalq standartlara uyğunlaşması" mövzusunda MDB ölkələri üzrə Beynəlxalq Telekommunikasiya İttifaqının Naxçıvan şəhərində keçirdiyi regional seminarda iştirak etmişdir. Seminarda Beynəlxalq Telekommunikasiya İttifaqının (İTU) İKT üzrə statistik məlumatlar şöbəsinin müdiri Susan Teltscher və həmin şöbənin mütəxəssisi İvan Valexo, BMT-nin bu sahədəki nümayəndəsi Diana Korka həmçinin Gürcüstan və MDB ölkələrinin milli statistika və rabitə orqanlarının mütəxəssisləri iştirak etmişlər. Seminar təqdimatlar və dəyirmi masa formatında təşkil edilmişdir.

Seminarın əsas məqsədi regional əməkdaşlıq, İKT statistikası sahəsində təcrübə mübadiləsi, İKT göstəricilərinin beynəlxalq standartlara uyğunlaşması, bu sahədə mövcud göstəricilər üzrə MDB ölkələri ilə müqayisəliliyin təmin edilməsi, İKT siyasətinin aparılması və təkmilləşdirilməsi sahəsində bəzi ölkələrə yardımçı olmaq və sözügedən sahə ilə bağlı mövcud problemlərin müzakirəsi olmuşdur.

Dövlət Statistika Komitəsinin nümayəndəsi "İKT statistikası sahəsində rəsmi statistika orqanlarının fəaliyyəti, beynəlxalq standartlar və əhatə dairəsi" mövzularını əhatə etməklə maraqlı məruzə ilə çıxış etmişdir. Qeyd edilmişdir ki, MDB dövlətləri arasında ilk dəfə olaraq 2005-ci ildən etibarən Dövlət Statistika Komitəsi tərəfindən İKT statistikası təşkil edilmişdir. İKT statistikasının yaradılmasını şərtləndirən amillər, bu sahə üzrə qəbul olunmuş dövlət proqramları, nəzəri və praktiki addımlar, əldə edilmiş nəticələr, əsas statistik göstəricilər, beynəlxalq standartlar üzrə razılıq və vahid metodologiyalar haqqında geniş məlumat verilmişdir. "Azərbaycanda informasiya cəmiyyəti" məcmuəsi haqqında məlumat verilmiş və nəşr olunmuş məcmuə təşkilatçılar və görüş iştirakçıları tərəfindən yüksək qiymətləndirilmişdir.



Gündəliyə uyğun olaraq, görüşün ikinci günü müəssisələrdə İKT sektoru üzrə əsas İKT göstəriciləri, ayrı-ayrı ölkələrin bu sahədəki təcrübəsi və metodoloji izahatlar müzakirə olunmuşdur. BMT-nin nümayəndəsi öz çıxışında müəssisələrdə İKT sektoru üzrə göstəricilərin mövcudluğu haqqında təmsil etdiyi təşkilatın əldə etdiyi nəticələri açıqlamışdır. Onun məlumatına görə, bu sahədə məlumatların mövcudluğuna görə Azərbaycan artıq davamlı olaraq 8 ildir ki, MDB ölkələri arasında 1-ci yerdə qərarlaşır. Daha sonra Dövlətstatkomun nümayəndəsi "Müəssisələrdə İKT statistikasının təşkili" və "Azərbaycanda İKT statistikasının perspektivləri və mövcud problemlər" mövzusunda məruzə ilə çıxış etmişdir. O öz çıxışımda Dövlət Statistika Komitəsinin ev təsərrüfatlarında İKT-nin ölçülməsi ilə yanaşı 2005-ci ilin əvvəlindən başlayaraq müəssisələrdə İKT-nin ölçülməsi ilə əlaqədar görülmüş işlər və bu sahədə həyata keçirilmiş tədbirlər haqqında danışmışdır.